# Strateji düşüncə, diplomatik çeviklik və iqtisadi inkişafın vəhdəti

## 2007-ci il iyulun 3-də "Şahdəniz" qaz-kondensat yatağından hasil edilən təbii qaz Bakı-Tbilisi-Ərzurum marşrutu üzrə Cənubi Qafqaz qaz boru kəməri ilə qardaş Türkiyənin qaz kəmərləri sisteminə daxil olub

**XXI əsrin enerji təhlükəsizliyində baş verən dönüşlər Cənubi Qafqaz regionunu və xüsusilə Azərbaycanı daha önəmli aktora çevirib. Məhz bu kontekstdə həyata keçirdiyi uzaqgörən enerji siyasəti, xüsusilə neft və qaz sənayesində atılan strateji addımlar dövlətimizin beynəlxalq səviyyədə etibarlı tərəfdaş mövqeyini möhkəmləndirib. Azərbaycanın zəngin enerji resurslarının dünya bazarlarına çıxarılması 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ilə başlayıb. Bu müqavilə ilə ölkənin neft sənayesi üçün yeni dövr başlasa da, təbii qaz sahəsindəki yüksəlişin təməli 1996-cı ildə "Şahdəniz" yatağı üzrə imzalanmış Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) ilə qoyuldu. 1999-cu ildə isə bu istiqamətdə mühüm dönüş baş verdi, Xəzərin Azərbaycan sektorunda yerləşən, ehtiyatları 1,2 trilyon kubmetr qaz və 240 milyon ton kondensatla ölçülən nəhəng "Şahdəniz" yatağı kəşf edildi.**

"Şahdəniz" yatağı Bakı şəhərindən 70 kilometr cənub-şərqdə, Xəzər dənizinin 50-500 metr dərinlikdə dəyişən sularında yerləşir. Dünyanın ən böyük qaz-kondensat yataqlarından biri hesab olunmaqla yanaşı, həm də texnoloji və mühəndislik baxımından olduqca mürəkkəb ərazidə yerləşməsi ilə fərqlənir. 2006-cı il dekabrın 15-də yataqda ilk quyu istismara verildi. Bu hadisə Azərbaycan üçün siyasi və iqtisadi cəhətdən mühüm bir mərhələnin başlanğıcı oldu. "Şahdəniz" yatağının kəşfi və işlənməsi bütövlükdə Avropa üçün də strateji əhəmiyyət daşıyırdı. 2006-cı ilin sonlarından etibarən yataqdan hasil olunan qaz Səngəçal terminalında ilkin emaldan keçirilərək ümumi uzunluğu 997 kilometr, ötürmə qabiliyyəti ildə 20 milyard kubmetr təşkil edən Cənubi Qafqaz Boru Kəməri ilə Azərbaycan, Gürcüstana və Türkiyəyə çatdırılır.

Avropanın enerji xəritəsində mühüm yer tutan Azərbaycan neftlə olduğu kimi, qaz sektorunda da strateji aktora çevrildi. Bu prosesin simvolik başlanğıc nöqtəsi isə 2006-cı ildə istifadəyə verilən Bakı-Tbilisi-Ərzurum (BTƏ) və ya Cənubi Qafqaz Boru Kəməri oldu. 2006-cı ildə Azərbaycan, Gürcüstan və Türkiyənin siyasi iradəsi və iqtisadi maraqları nəticəsində inşa edilən Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri region üçün tarixi hadisə idi. Bu kəmər Xəzərin Azərbaycan sektorundakı dünyanın ən zəngin qaz-kondensat yataqlarından biri sayılan "Şahdəniz" yatağından hasil edilən qazın dünya bazarlarına çıxarılması üçün əsas vasitəyə çevrildi. 2007-ci il iyulun 3-dən etibarən BTƏ vasitəsilə qaz nəqlinə başlanması Azərbaycanın qaz ixracatçısı kimi yeni mərhələyə keçdiyini göstərdi.

BTƏ kəmərinin illik ötürücülük qabiliyyəti 20 milyard kubmetr həcmindədir. Kəmər Azərbaycan-Gürcüstan-Türkiyə marşrut xətti üzrə uzanaraq Cənubi Qafqazın enerji coğrafiyasında yeni dinamik qovşağa çevrilməsinə səbəb oldu. Azərbaycanın qaz ehtiyatlarını Avropa ölkələrinin böyük tələbatı, Türkiyənin tranzit ölkə kimi mövqeyinin gücləndirilməsi və Azərbaycanın iqtisadi maraqları bu layihənin daha da genişləndirilməsini zəruri etdi. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə çıxışlarında qeyd etmişdir ki, Cənub Qaz Dəhlizinin əsası məhz BTƏ ilə qoyulub. Bu kəmər strateji baxımdan yalnız regional deyil, eyni zamanda qlobal enerji təhlükəsizliyinə töhfə verən layihədir. Cənub Qaz Dəhlizi üç əsas komponentdən ibarətdir - Cənubi Qafqaz qaz boru kəməri (BTƏ) Şahdəniz qazını Gürcüstan və Türkiyəyə çatdırır. TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) Türkiyənin şərqindən başlayaraq qərbinə qədər uzanır. TAP (Trans-Adriatik Qaz Boru Kəməri) TANAP-ın Türkiyə-Yunanıstan sərhədində birləşdiyi hissədən başlayaraq Yunanıstan, Albaniya və Adriatik dənizi vasitəsilə İtaliyaya çatır.

Onu da qeyd edək ki, "Şahdəniz-2" layihəsi çərçivəsində çıxarılan təbii qaz 2018-ci ildən etibarən genişləndirilmiş BTƏ və TANAP vasitəsilə Türkiyəyə çatdırılır. 2020-ci ilin dekabrında TAP-ın işə düşməsi ilə Azərbaycan qazın ilk dəfə birbaşa Avropa bazarına çıxarıldı. Bütün bu layihələr Azərbaycanın iqtisadi dayanıqlılığını da gücləndirdi. Qaz ixracından əldə olunan gəlirlər ölkədə sosial layihələrin icrasına, infrastrukturun inkişafına və qeyri-neft sektorunun stimullaşdırılmasına yönəldildi. Bu gün BTƏ kəməri sadəcə bir infrastruktur layihəsi deyil, Azərbaycanın strateji düşüncəsinin, diplomatik çevikliyinin və iqtisadi inkişaf yolunun rəmzidir.

Azərbaycanın təşəbbüsü ilə reallaşan BTƏ yalnız bugünkü deyil, gələcək nəsillər üçün də regionun enerji xəritəsində dayanıqlılığı təmin edir. 2018-ci il mayın 29-da Cənub Qaz Dəhlizinin açılış mərasimində dövlət başçısı bu barədə demişdir: "2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. Bu da çox önəmli layihədir. Bu layihə olmadan "Şahdəniz" yatağının işlənməsi mümkün deyildi. Beləliklə, ilk dəfə olaraq 2007-ci ildə Azərbaycan qazı Gürcüstana və Türkiyəyə nəql edilməyə başlamışdır... Doğrudan da, bunlar tarixi nailiyyətlərdir. "Şahdəniz" yatağının gələcək işlənilməsi ilə bağlı addımlar atılmağa başlanıldı. Əlbəttə, biz hamımız yaxşı bilirdik ki, böyük həcmdə Azərbaycan qazını dünya bazarlarına çıxarmaq üçün qaz kəməri lazımdır. Beləliklə, Cənub Qaz Dəhlizinin yaradılması ilə bağlı praktiki işlərə start verildi. Çox ciddi işlər, danışıqlar aparıldı".

Ötən il Azərbaycanın neft-qaz sektorunda sabitlik və inkişafla yadda qaldı, həm hasilat, həm də ixrac həcmləri üzrə mühüm rəqəmlər qeydə alındı. İstismar olunan iri yataqların fəaliyyəti, yeni sahələrin dövriyyəyə daxil olması və qaz nəqlinin daha geniş coğrafiyaya yayılması Azərbaycanın enerji sahəsindəki lider mövqeyini daha da gücləndirdi. Ümumilikdə 24,4 milyon ton neft (kondensatla birlikdə) ixrac edildi. Bu həcmin böyük hissəsi, 21 milyon tonu beynəlxalq konsorsiumların payına düşür. Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən 2,8 milyon ton, "Abşeron" yatağından isə 0,6 milyon ton neft ixrac olundu. Neftin emalı sahəsində isə 5,8 milyon ton həcmində xam neft yerli emal müəssisələrinə yönləndirildi ki, bu da ölkənin daxili enerji təhlükəsizliyinə mühüm töhfədir. İlin sonunda ölkədə gündəlik neft hasilatı 80 776 ton, yəni 609 min barrel təşkil etdi. Hasilat strukturunda xam neft 65 987 ton (487 min barrel), kondensat 14 789 ton (122 min barrel) oldu.

2024-cü ildə ümumi qaz hasilatı 50,3 milyard kubmetr olub ki, bu da 2023-cü illə müqayisədə 2 milyard kubmetr çoxdur. Hasilatın əsas mənbələri "Şahdəniz" yatağı 27,8, "Azəri-Çıraq-Günəşli" (AÇG) 13,3, "Abşeron" yatağı 1,5, SOCAR üzrə hasilat 7,7 milyard kubmetr olaraq paylanıb. Eyni zamanda ötən il xaricə 25,2 milyard kubmetr təbii qaz satılıb. Bu rəqəm 2023-cü illə müqayisədə 5,8 faiz artım deməkdir. İxrac coğrafiyası isə Avropa bazarlarına 12,9, Türkiyəyə 9,9, Gürcüstana 2,4 milyard kubmetr təşkil edib.

Cari ilin əvvəlinə qədər Azərbaycanın iki nəhəng yatağı olan "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" üzrə ümumi hasilat göstəricilərində isə ümumi hasilat neft və kondensat üzrə 650,2 milyon, qaz 466,5 milyard kubmetr olub. Ötən ilin yekunları göstərir ki, Azərbaycan neft-qaz sahəsində yüksək hasilat imkanlarını qoruyur və bu sahədə etibarlı tərəfdaş olaraq çıxış edir. Yeni yataqların dövriyyəyə daxil olması, ixrac infrastrukturunun optimallaşdırılması və beynəlxalq tərəfdaşlıqlar ölkənin enerji sektorunun dayanıqlı inkişafını təmin edir.

Bu ilin ilk rübü də Azərbaycanın enerji sektoru üçün hasilat və ixrac baxımından mühüm göstəricilərlə yadda qalıb. Yanvar-mart aylarında ölkədə ümumilikdə 6,9 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Hasilatın böyük hissəsi, yəni 4 milyon tonu "Azəri-Çıraq-Günəşli" yatağının payına düşüb. "Şahdəniz" yatağından rüb ərzində 1 milyon ton kondensat hasil olunub.

Azərbaycanın enerji salnaməsində mühüm yer tutan "Şahdəniz" qaz-kondensat yatağı ikinci işlənmə mərhələsi ilə bütün region və Avropa üçün strateji əhəmiyyət daşıyan yeni bir epoxanın əsasını qoydu. 2013-cü ildə təsdiqlənən "Şahdəniz-2" layihəsi texniki miqyası, mühəndislik mürəkkəbliyi və iqtisadi çəkisi baxımından dünyanın ən iri-miqyaslı və çətin qaz layihələrindən biri hesab olunur. Bu mərhələ Azərbaycanın Xəzər dənizindəki enerji resurslarını ilk dəfə olaraq birbaşa Avropa bazarlarına çatdırmaq imkanını reallığa çevirdi. Layihə həmçinin Cənub Qaz Dəhlizinin başlanğıc nöqtəsi olmaqla, Azərbaycanın qlobal enerji aktoru kimi geosiyasi statusunu gücləndirdi.

"Şahdəniz-2" layihəsi Xəzər dənizində ilk sualtı qaz işlənməsi layihəsi olmaqla yanaşı, bp şirkətinin dünyada idarə etdiyi ən iri sualtı infrastruktur nümunəsi kimi tarixə düşdü. Layihənin dəniz mərhələsi 26 sualtı quyu, 500 km uzunluğunda sualtı boru kəmərləri və axın xətləri, körpü vasitəsilə birləşdirilmiş iki yeni platforma - "Şahdəniz Bravo" platforması və onunla inteqrasiya olunmuş obyektlərdən ibarətdir.

2018-ci il iyulun 30-da SDC03Z quyusunun ventili açılaraq "Şahdəniz Bravo" platformasından ilk qaz hasil olundu. Bu, Xəzər dənizində ilk dəfə sualtı quyudan hasilatın başlanması idi və layihə təhlükəsiz, büdcədən aşağı və cədvəli qabaqlayaraq həyata keçirildi. Bu nailiyyət Azərbaycan üçün mühəndislik uğuru, həm də beynəlxalq enerji sənayesində texnoloji etibarlılıq göstəricisi oldu. Nəticədə "Şahdəniz Bravo" qurğularından hasil edilən qaz və kondensat bu günə qədər Səngəçal terminalına ixrac olunur və burada emal edilərək beynəlxalq bazarlara çatdırılır. 2020-ci il dekabrın 31-də "Şahdəniz" yatağından ilk dəfə olaraq Avropaya Cənub Qaz Dəhlizi (CQD) vasitəsilə kommersiya qaz nəqli həyata keçirildi. Bu hadisə Azərbaycan-Avropa enerji əməkdaşlığında yeni dövrün başlanğıcı oldu. Layihənin Xəzər dənizindən İtaliya sahillərinə qədər 3500 km məsafəni əhatə edən qaz dəyər zənciri tam inteqrasiya olundu və reallığa çevrildi. 2024-cü ilin dördüncü rübündə "Şahdəniz-2" layihəsi çərçivəsində yeni mərhələyə keçildi: Şərq-şimal cinahında üçüncü quyu işə salındı, Qərb-cənub cinahında sualtı infrastruktur üzrə işlər davam etdirildi, "Xankəndi" sualtı tikinti gəmisi layihənin texniki və əməliyyat ehtiyaclarını qarşılamaqda davam etdi. "Xankəndi" gəmisi hazırda "Şahdəniz-2" və "Azəri-Çıraq-Günəşli" (AÇG) sualtı obyektlərinə texniki xidmət, yoxlama və təmir-müdaxilə işlərində aktiv iştirak edir. Bu da Azərbaycanın dənizdə yüksək səviyyəli texniki və əməliyyat bacarıqlarını formalaşdırdığını göstərir.






Azərbaycanın strateji düşüncəsinin, texnoloji çevikliyinin və diplomatik çevrəliyinin sintezindən yaranmış modeldir. Prezident İlham Əliyev aprelin 4-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasında "Azəri-Çıraq-Günəşli" və "Abşeron", "Şahdəniz" bir çox ölkələrin enerji təhlükəsizliyinə töhfə verdiyini bildirib: "Bir neçə ildən sonra həmin sahələr işləniləcək ki, bununla bağlı müqavilələr imzalanıb, proqramlar həyata keçirilir. Boru kəmərlərinin çəkilməsi, Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft boru kəməri və həmçinin qaz boru kəmərləri hamısı bir yerdədir. Biz bunu bütün iştirakçılarla etdik".

"Şahdəniz" layihəsi və onunla bağlı boru kəmərləri sisteminin inşası Azərbaycan üçün təkcə iqtisadi gəlir deyil, həm də güclü enerji diplomatiyası imkanları yaradıb. Bu gün Azərbaycan Avropa İttifaqı ilə enerji əməkdaşlığını dərinləşdirir, həm də qaz təchizatçısı olaraq etibarlı strateji tərəfdaş kimi qəbul olunur. Azərbaycanın qaz sənayesində əldə etdiyi uğurlar bir daha sübut edir ki, düzgün müəyyən olunmuş enerji strategiyası və güclü beynəlxalq tərəfdaşlıq nəticəsində ölkə yalnız regionda deyil, həm də Avropa üçün vacib enerji oyunçusuna çevrilə bilər. "Şahdəniz" yatağı və Cənub Qaz Dəhlizi kimi layihələr bu yolun əsas sütunlarıdır. Bu uğurlar fonunda Azərbaycanın enerji gələcəyi karbohidrogen resurslarına, eyni zamanda regional sabitlik və qlobal əməkdaşlıq ruhuna əsaslanır.

Ləman TƏHMƏZ,
"Respublika".